"Bu, bir daha onu nümayiş etdirir ki, komanda şəklində aparılan iş yaxşı nəticə verir. Biz əhəmiyyətli irəliləyişə nail olmuşuq. Cənub Qaz Dəhlizi enerji təhlükəsizliyi və enerjinin şaxələndirilməsi layihəsidir. Bu gün enerji təhlükəsizliyi bütün ölkələrin milli təhlükəsizlik məsələsidir. Enerjinin şaxələndirilməsi də istehlakçı və istehsalçı ölkələr üçün vacibdir. Beləliklə, zənnimcə, biz misilsiz əməkdaşlıq formatına nail olmuşuq". Bu fikirləri Azərbaycan Prezidenti İlham Əliyev 2021-ci il fevralın 11-də Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin videokonfrans formatında keçirilən VII iclasında deyib.




# “Dostluq" yatağının karbohidrogen resurslarından birgə istifadə olunacaq

Qeyd edək ki, Cənub Qaz Dəhlizi ardıcıl və müəyyən məqsədə yönəldilmiş beynəlxalq əməkdaşlıq, tərəfdaşlıq, siyasi iradə və ümumi maraqlar sayəsində reallaşdırılıb. Odur ki, mövcud infrastrukturdan istifadə etmək istəyən digər ölkələr də bu əməkdaşlıqdan faydalana bilər. Beləliklə, qaz layihələrinin enerji bazarında mühüm rol oynayacağına şübhə qalmır. Xəzər qazı isə enerji mənbələri və marşrutların şaxələndirilməsində mühüm əhəmiyyətə malikdir. Cənub Qaz Dəhlizi Mərkəzi Asiyada qaz hasil edən dövlətlər, xüsusən Türkmənistan üçün də yeni imkanlar yaradır. Belə ki, Türkmənistan öz qazını Transxəzər kəməri vasitəsilə nəql edə bilər.

Bununla bağlı fikir bildirən Azərbaycan Prezidenti Azərbaycanın istehsalçı ölkədən, həm də tranzit ölkəyə çevrilməsi ilə əlaqədar qeyd edib ki, qardaş Türkmənistanla birlikdə istismar ediləcək "Dostluq" yatağından əldə ediləcək resurslar artıq Azərbaycana həm də tranzit ölkə statusu qazandırmış olacaq. Ancaq bu istiqamətdə şübhəsiz ki, daha yeni və fərqli perspektivlər var ki, bu da gələcəkdə aydın görünəcək. Bütün bunlar uzunmüddətli perspektivdə layihəni mənbə və tərəfdaş ölkələr üçün maraqlı edir.

Cənub Qaz Dəhlizi layihəsi yalnız marşrutların deyil, həm də mənbələrin şaxələndirilməsini nəzərdə tutur. Bu da olduqca vacib məsələdir və real şaxələndirmə deməkdir. Azərbaycan qazı Avropa üçün yeni, etibarlı və uzunmüddətli mənbə sayılır, çünki ölkəmizin təbii qaz ehtiyatı 2,6 trilyon kubmetr təşkil edir və onun artma ehtimalı vardır. Belə ki, Azəri-Çıraq-Günəşli yatağındakı "dərin qaz" adlanan layihə bu potensialın mənzərəsini daha aydın göstərir. Azərbaycan və Türkmənistan arasında birgə yataq hələ sovetlər dövründə azərbaycanlı geoloq və neftçilər tərəfindən kəşf edilib. Yatağın işlənilməsinə dair baza prinsipləri hazırlanmış və o, "Dostluq" adlandırılmışdır. Bu isə Xəzər hövzəsində çox əlamətdar hadisədir. 2021-ci ilin yanvar ayında Azərbaycan və Türkmənistan arasında "Dostluq" yatağına dair Anlaşma Memorandumu imzalanıb.

Məşvərət Şurasının iclasında iştirak edən Türkmənistanın dövlət naziri, "Türkmənqaz" Dövlət Konserninin sədri Batır Amanov Cənub Qaz Dəhlizinin Avropa İttifaqı üçün enerji təchizatının şaxələndirilməsində mühüm rol oynadığını, birgə əməkdaşlığın uğurla həyata keçirildiyini bildirərək demişdir: "...Bildiyiniz kimi, Xəzər dənizindən Türkiyəyə, daha sonra Avropa İttifaqı ölkələrinə qaz nəql olunur... hazırkı səylər və bizim davamlı, məqsədəuyğun addımlarımız bugünkü beynəlxalq əməkdaşlığımızın xüsusi formatının yaradılmasına xidmət edir... Hazırda həmin qaz boru kəməri və bütün seqmentlər gələcəkdə Türkiyənin və Avropa ölkələrinin enerji təhlükəsizliyinin artırılmasında mühüm rol oynaya bilər. Türkmənistan beynəlxalq münasibətlər sisteminin fəal iştirakçısı kimi qlobal enerji əməkdaşlığının inkişafına öz tərəfindən layiqli töhfə verir".

Azərbaycan hər zaman Xəzər dənizində dialoq, qarşılıqlı anlaşma, əməkdaşlıq və sabitlik mühitinin formalaşması üçün səy göstərmiş və Xəzər dənizinin hüquqi statusunun müəyyənləşdirilməsi istiqamətində ilk təşəbbüs göstərən ölkələrdən biri olmuşdur. Azərbaycanın atdığı addımlar Xəzər dənizində bölgü məsələləri üzrə sahilyanı ölkələrin mövqelərinin yekunlaşdırılmasına və ümumi konsensusun əldə edilməsinə xidmət etmişdir. Xəzər dənizində bölgü məsələləri üzrə sahilyanı ölkələr arasında dialoq üçün həm ikitərəfli, həm də çoxtərəfli formatlara üstünlük verilmişdir. Bu baxımdan da Azərbaycanla Türkmənistan arasında əldə olunmuş razılaşmaya əsasən 2021-ci il yanvarın 21-də Aşqabad şəhərində Azərbaycan Respublikası hökuməti ilə Türkmənistan hökuməti arasında Xəzər dənizində "Dostluq" yatağının karbohidrogen resurslarının birgə kəşfiyyatı, işlənməsi və mənimsənilməsi haqqında Anlaşma Memorandumunun imzalanması mühüm tarixi hadisə olmaqla yanaşı, həm də Azərbaycanın sülhsevər, əməkdaşlığa açıq, destruktiv siyasətdən kənar bir dövlət olmasının dünya ölkələrinə nümayişidir.

## Bu, ölkələr arasında əməkdaşlığın möhkəmləndirilməsində mühüm addımdır

Xatırladaq ki, indi "Dostluq" adlanan yatağı Türkmənistan "Sərdar", Azərbaycan isə "Kəpəz" adlandırırdı. Yatağın yerləşdiyi bölgəni isə hər iki tərəf öz dəniz ərazisi hesab edirdi. Artıq yataqdan birgə istifadə olunacaq. Bu iki ölkə arasındakı anlaşma gələcəkdə ortaq enerji kəmərlərinin çəkilməsinə imkan yarada bilər. Türkiyə, Azərbaycan, Pakistan, Türkmənistan və Əfqanıstanı birləşdirən Lapis-Lazuri nəqliyyat dəhlizinin açılması digər layihələrin də siyasi reallaşmasına gətirib çaxaracaq. Türkmənistanın Azərbaycanla Xəzər dənizində birgə fəaliyyəti digər Orta Asiya ölkələri ilə siyasi-iqtisadi əlaqələrin inkişafında yeni mərhələlərin başlanğıcıdır.

Ekspertlərin fikrincə, mübahisəli karbohidrogen yataqlarının işlənməsi ilə bağlı məsələnin həlli regionda birgə neft-qaz istismarı üçün münbit şərait yaradacaqdır və bütün hallarda hədəf türk dövlətlərinin birliyinin möhkəmləndirilməsindən ibarətdir.

Anlaşma Memorandumunun 2-ci maddəsində deyillir: "Dostluq yatağının karbohidrogen resursları tərəflər arasında 30 faiz Azərbaycan Respublikasına, 70 faiz Türkmənistana nisbətində bölüşdürülür. "Dostluq" yatağından çıxarılmış, beynəlxalq bazarlara ixrac üçün nəzərdə tutulmuş karbohidrogen resurslarının daşınması Azərbaycan Respublikasının mövcud olan nəqliyyat-tranzit sistemlərinin istifadə edilməsi ilə rəqabətqabiliyyətliliyi şərtləri əsasında və beynəlxalq neft-qaz sənayesində qüvvədə olan normalara və təcrübəyə uyğun olaraq həyata keçirilir. Bu kontekstdə tərəflər karbohidrogen resurslarının beynəlxalq bazarlara nəqli sahəsində ən səmərəli beynəlxalq formalarını istifadə edəcəklər".

Anlaşma Memorandumunun imzalanma mərasimində Türkmənistan prezidenti deyib ki, bu gün Türkmənistan ilə Azərbaycan arasında "ənənəvi dostluq, qardaşlıq münasibətlərində çox əhəmiyyətli gündür". O, bu sənədin enerji sahəsində əməkdaşlığın və qarşılıqlı anlaşmanın "möhkəmlənməsinə" və iki dövlətin "birgə potensialının üzə çıxarılmasına" yönəldiyini söyləyib. Həmçinin əlavə edib ki, Xəzər mövzusunda qarşılıqlı fəaliyyət Türkmənistan-Azərbaycan əməkdaşlığının "ən mühüm istiqamətidir".

Prezident İlham Əliyev isə deyib ki, bu layihə iki ölkənin və qonşuların enerji təhlükəsizliyinin möhkəmlənməsinə şərait yaradacaq: "Ona görə də bugünkü sənədi tarixi sənəd adlandırardım, çünki Azərbaycan və Türkmənistan ilk dəfə olaraq Xəzər dənizindəki yatağın mənimsənilməsi üzrə birgə işə başlayır və bu yataq, həmin yataqdakı iş ölkələrimizi və xalqlarımızı daha da yaxınlaşdıracaq, həm Türkmənistan, həm də Azərbaycan xalqlarına xeyir gətirəcək".

İqtisadçılar bu fikirdədirlər ki, yataqların ayrı-ayrılıqda işlənməsi müxtəlif ərazilərdə qazma işlərinə ehtiyacı zəruri edəcəkdi ki, bu da hər iki ölkənin digərinin sərhədini pozmaq kimi dəyəndiriləcəkdi. İndi birgə əməkdaşlıq bu ehtimalı da yox edir. Yataqdan çıxarılacaq qazın İran ərazisindən keçərək Azərbaycana nəql olunması, buradan isə Bakı-Tbilisi-Ərzurum və TANAP-TAP layihələri vasitəsilə "Avropaya çatdırılması üçün imkanlar" var. Bu layihələrin buraxılış gücü illik 32-34 milyard kubmetr qazdır. Azərbaycan isə Avropa bazarına ən yaxşı halda 10 milyard kubmetr qaz verə biləcək. Bu borulardan keçid həddi kifayət qədər geniş olduğu üçün onları əlavə qaz resursları ilə doldurmaq mümkündür. Təbii ki, layihənin reallaşdırılması üçün xarici investorların cəlb olunması da labüddür. Bu isə çətin olmayacaq, çünki Azərbaycanın bu sahədə kifayət qədər təcrübəsi var, həm də xarici investorlar artıq Azərbaycanda daha rahat işləmək mexanizmləri qurublar. Beləliklə, birgə əməkdaşlıq Türkmənistan qazının Azərbaycan vasitəsilə Avropaya çatdırılmasının gerçəkləşdirilməsinə zəmin yaradacaq, bununla da Avropanın enerji təhlükəsizliyinin təmin edilməsinə daha bir töhfə verəcəkdir.

**Zümrüd QURBANQIZI,**
**"Respublika".**